# SERTİFİKATLAŞDIRMA PROSESİNDƏ QƏRƏZSİZLİYİN VƏ MƏXFİLİYİN TƏMİN EDİLMƏSİ BARƏDƏ BƏYANNAMƏ

“Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxsin Mehmanxanaların Ulduz Kateqoriyaları üzrə Sertifikatlaşdırma Orqanı olaraq, biz fəaliyyətimizi AZS ISO/IEC 17065:2021 “Uyğunluğun qiymətləndirilməsi Məhsulların, proseslərin və xidmətlərin sertifikatlaşdırılmasını aparan orqanlara dair tələblər” standartının tələblərinə uyğun həyata keçirir və qərəzsizliyin və məxfiliyin təmin edilməsini üzərimizə öhdəlik kimi götürürük.

### *1. Sertifikatlaşdırma Orqanının məqsədləri*

- Qərəzsizliyin və məxfiliyin təmin edilməsi üçün zəruri səriştəyə malik işçi heyətini formalaşdırmaq və idarə etmək.
- Qərəzsizliyin təmin edilməsi mexanizmini Keyfiyyətin İdarəetmə Sistemində (KİS) təsbit etmək və tətbiqini təmin etmək.
- Siyasət və prosedurlarda müəyyən edilmiş tələblərə riayət olunmasını təmin etmək, bütün heyətin KİS sənədləri ilə tanışlığını təmin etmək.
- Sifarişçilərə xidmət göstərərkən mövcud qanunvericilik, normativ sənədlər və akkreditasiya sahəsinin tələblərinə uyğun hərəkət etmək.
- Sertifikatlaşdırma prosesində şəffaflıq və obyektivliyi təmin etmək.
- Qərəzsizlik və məxfilik sisteminin səmərəliliyini və keyfiyyətini davamlı olaraq yaxşılaşdırmaq.
- Subpodrat və ya müvəqqəti əsaslarla cəlb edilən mütəxəssislərin fəaliyyətinin, məxfiliyin və qərəzsizliyin qorunmasına xələl gətirmədən həyata keçirilməsinə zəmanət vermək.
- Subpodrata verilmiş işlər (məsələn, təlim və ya imtahan) zamanı qərəzsizlik və məxfiliyin təmin olunmasına zəmanət vermək.

***2. Sertifikatlaşdırma Orqanının öhdəlikləri***

- Qərəzsizliyin və məxfiliyin təmin olunması məqsədilə sertifikatlaşdırma prosesini təşkil etmək, idarə etmək və daim təkmilləşdirmək.
- Sertifikatlaşdırma prosesinin bütün mərhələlərində qərəzsizlik və məxfiliyi qorumaq.
- Sertifikatlaşdırma xidmətlərinin göstərilməsi zamanı qərəzsizliyi poza biləcək bütün daxili və xarici amilləri müəyyən etmək və aradan qaldırmaq.
- Qərəzsizlik Şurası vasitəsilə qərəzsizlik prinsipinə əməl olunmasına davamlı nəzarət həyata keçirmək.

Məxfi məlumatların yalnız səlahiyyətli şəxslər tərəfindən, qanuni əsaslar və ya sifarişçinin yazılı razılığı əsasında üçüncü tərəflərə təqdim olunmasını təmin etmək.

**TƏSDİQ EDİRƏM:**

“Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxsin
Mehmanxanaların Ulduz Kateqoriyaları üzrə Sertifikatlaşdırma Orqanının rəhbəri

**Florian Sengstschmid**

Tarix: “2” may 2025-ci il